# Mühasibat uçotunun (maliyyə hesabatının) beynəlxalq standartlarına keçid nə üçün lazımdır?

Maliyyə hesabatının beynəlxalq standartları (MHBS) mühasibat uçotunun aparılmasının ümumi qaydalarının məcmusudur. MHBS mühasibat uçotunun aparılmasının və hesabatların tərtib olunmasının konkret üsullarını müəyyənləşdirən normativ sənəd deyildir. MHBS yalnız tövsiyə xarakteri daşıyır, yəni tətbiqi hamı məcburi deyildir (bizdə isə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununda göstərilən subyektlər üçün məcburidir). Bu standartların əsasında hər bir ölkə uçotun aparılmasının konkret üsulların müəyyənləşdirən milli uçot sistemi yarada bilər.

Bununla belə MHBS tətbiqi aşağıdakı səbəblərdən vacibdir:

**Əvvəla,** maliyyə hesabatının MHBS uyğun surətdə tərtib edilməsi Azərbaycan müəssisələrinin beynəlxalq kapital bazarına daxil olmasına imkan verən əsas şərtlərdən biridir. Məlumdur ki, kapital, xüsusən də xarici kapital müəssisələrin fəaliyyəti haqqında məlumatın və menecerlərin investorlar qarşısındakı hesabatın şəffavlığını tələb edir. Hal-hazırda respublikamızda qüvvədə olan uçot sistemi bu vəzifələri yerinə yetirmək iqtidarında deyildir, xüsusən də müəssisənin maliyyə vəziyyəti haqqında dəqiq məlumat almağa imkan vermir. Qoyduğu kapitalın necə istifadə olunduğunu və nə qədər gəlir gətirdiyini maliyyə hesabatı vasitəsilə izləyib aydın başa düşə bilməyincə heç bir investor iqtisadiyata kapital qoymaz. Yəni bu vəzifə yerinə yetirilməyincə Azərbaycan investorlar üçün yüksək risk zonası olaraq qalacaqdır. Nəticədə xarici kapitalın (söhbət neft sahəsinə qoyulan və dövlət təminatı vrilən kapitaldan getmir) respublikamıza gəlməsi çətinləşəcəkdir.

**İkincisi,** beynəlxalq təcrübə göstərir ki, MHBS uyğun surətdə tərtib edilmiş hesabat istehlkçılar üçün yüksək məlumatlığa malikdir.

Məlumdur ki, maliyyə hesabatının məlumatlığını artırmadan fond bazarını inkişaf etdirmək olmaz. Hər hansı bir müəssisənin səhmini (payını) alan istənilən investor əvvəlcə həmin müəssisənin maliyyə vəziyyətini öyrənməlidir və sonradan müəssisənin elan olunan maliyyə nəticələrinin düzgünlüyünə əmin olmalıdır. Bundan başqa, banklar və müəssisənin digər tərəf-müqabilləri müəssisənin maliyyə vəziyyəti haqqında düzgün məlumat almaq istəyirlər.

MHBS məhz konkret istehlakçıların tələbatı nəzərə alınmaqla işlənib hazırlanır. Bu və ya digər standart hazırlanarkən əsas meyar kimi dərc olunan məlumatın iqtisadi qərarlar qəbul etmək üçün nə dərəcədə faydalı olması əsas götürülür. Təsadüfi deyildir ki, MHBS-in ayrılmaz hissələrindən biri olan "Maliyyə hesabatının hazırlanması və təqdim edilməsinin əsasları" digər məsələlərlə yanaşı həm də bu hesabatın kimlər üçün hazırlandığını, istehlakçıların tələbatlarını və bu məlumatı istehlakçılar üçün faydalı edən keyfiyyət xarakteristikalarını müəyyən edir.

**Üçüncüsü,** MHBS-in tətbiq edilməsi milli uçot standartlarının hazırlanması və tətbiqi üçün tələb olunan vaxt və ehtiyatlar sərfini azaldır. Belə ki, bu standartlar bazar iqtisadiyyatı şəraitində mühasibat uçotunun aparılması sahəsində uzun illər ərzində toplanmış təcrübəni özündə cəmləşdirir. Bu standartlar bir neçə nəsil mühasiblərin, mütəxəssislərin əməyinin nəticəsi kimi

formalaşmışdır.

Maliyyə hesabatının beynəlxalq standartlarının müsbət və mənfi cəhətlərini nəzərdən keçirək:

Maliyyə hesabatının beynəlxalq standartlarının müsbət cəhətləri kimi aşağıdakıları qeyd etmək olar:

- dəqiq iqtisadi məntiq;
- uçot sahəsində ən yaxşı dünya təcrübəsinin ümimiləşdirilib tətbiq edilməsi;
- bütün dünyada maliyyə məlumatının istifadəçiləri üçün anlaşıqlı olması.

Maliyyə hesabatının beynəlxalq standartları nəinki müəssisənin, xüsusən də müxtəlif ölkələrdə filialları və nümayəndəlikləri olan və icmallaşdırılmış hesabat tərtib edən müəssisələrin maliyyə hesabatının hazırlanması istiqamətindəki xərclərini, həm də bu müəssisələrin kapital cəlb etmək imkanlarını artırır. Məlumdur ki, kapitalın bazar qiyməti iki əsas amillə müəyyən olunur: gözlənilən gəlir və risk. Bəzi risklər müəssisənin fəaliyyət xarakterindən irəli gəlir. Lakin elə risklər də vardır ki, onlar müəssisənin fəaliyyəti barədə məlumat azlığından doğur. Məlumat, xüsusən də, maliyyə vəziyyəti barədə məlumat azlığı isə standartlaşdırılmış və istifadəçilərin tələblərinə cavab verə bilən hesabat formalarının olmamasından irəli gəlir. Odur ki. investorlar prinsip etibarilə, maliyyə hesabatlarının tərtibi və onların auditi ilə bağlı xərclərlə razıdırlar, bir şərtlə ki, məlumatın açıqlanması onların risklərini azaltsın.

Yuxarıda şərh olunan cəhətlər müxtəlif ölkələrdə maliyyə hesabatının beynəlxalq standartların milli uçot praktikasında tətbiq etməyə sövq edir.

Lakin MHBS-in mənfi cəhətləri də mövcuddur. Bunlara xüsusən aşağıdakıları aid etmək olar:

- uçot standartlarının ümumi xarakter daşıması və uçot metodlarının müxtəlifliyi;
- uçot standartlarının konkret təsərrüfat hallarına uyğun olaraq şərh edilməməsi.

MHBS-in dünya praktikasında geniş tətbiqinə mane olan amillər kimi müxtəlif ölkələrdə iqtisadi inkişaf səviyyəsinin eyni olmamasını, uçot ənənələrindəki müxtəlifliyi və həmçinin ölkə daxilində uçotu tənzimləyən orqanların bu sahədəki prioritet mövqelərini itirmək qorxusunu göstərmək olar.